Sosial yönümlü layihələrin şagirdlərin intellektual səviyyəsinin inkişafına, dünyagörüşünün genişlənməsinə, fəal vətəndaş kimi yetişməsinə müsbət təsirini artırmaq məqsədilərinə xidmət edən ekskursiya Təhsil Nazirliyi və Nazirlər Kabineti yanında "İçəri Şəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin birgə dəstəyi ilə reallaşdırılıb.

Şagirdlər kompleksdə Abşeron yarımadasında tapılmış və eramızdan əvvəl III-II minilliklərdən orta əsrlərə qədər dövrü əhatə edən qayaüstü rəsmlər, Qavaldaş, silah, keramika, məişət və bəzək əşyaları, sikkələr, qədim yaşayış kompleksinin konservasiya olunmuş qalıqları və digər tarixi-etnoqrafik nümunələrlə tanış olublar.

Tunc dövrünə aid qayaüstü və qayaaltı yaşayış məskənləri, qayaüstü təsvirlər, qədim özüllər, ibtidai divar qalığı, X-XIV və X-XV əsrlərə aid Xəzər dənizi və Bakı şəhəri istiqamətində iki yeraltı yol uşaqlarda böyük maraq yaradıb. Bundan başqa, məktəblilər üçün toxuculuq, dulusçuluq, dəmirçilik emalatxanalarında ustad dərsləri təşkil olunub və şagirdlər müvafiq məmulatların hazırlanması prosesində iştirak ediblər.